# "AzərEnerji"də qanvermə aksiyası










**Qurumun Mətbuat xidmətinin verdiyi məlumatda bildirilir ki, "Konstitusiya və Suverenlik İli" çərçivəsində Səhiyyə Nazirliyinin Respublika Qan Bankı Publik Hüquqi Şəxsin təşəbbüsü, "AzərEnerji" ASC-nin təşkilatçılığılə "Talassemiyasız həyat naminə" devizi altında qanvermə aksiyası keçirilib.**



"AzərEnerji" ASC-nin Baş İdarəetmə, Elm, Tədris və Laboratoriya Kompleksinin binasında keçirilən qanvermə aksiyasında səhmdar cəmiyyətin 120-dən artıq əməkdaşı iştirak edib. Qanvermə aksiyasında toplanan qan talassemiya və hemofiliyalı, eləcə də qana ehtiyacı olan digər xəstələrin qan çatışmazlığının aradan qaldırılması üçün nəzərdə tutulub.

Aksiyada iştirak edən donorlar qanvermədən öncə Respublika Qan Bankı Publik Hüquqi Şəxsin tibbi heyətinin bütün tibbi yoxlanışlarından keçdikdən sonra qan veriblər.

Qeyd edək ki, 2005-ci ilin fevral ayında birinci xanım Mehriban Əliyeva "Talassemiyasız həyat Naminə" proqram layihəsinin başlanmasını elan edəndən sonra "AzərEnerji" ASC də bu layihənin ən fəal davamçılarından birinə çevrilib.

Azərbaycan.- 2025.- 20 noyabr (№246).- S.9.